Pandemiya dünyanı yenidən təhdid etməkdədir. Mutasiya olunmuş ştammın daha ciddi təsirlər yarada biləcəyini ehtimal edən və bunu nəzərə alan ölkələr mübarizə tədbirlərini genişləndiriblər. Bu virusun yayıldığı bütün regionlarda vaksinasiya tədbirlərinə start verilib. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru T.Qebreyesusun sözlərinə görə, COVAX layihəsinə 190 ölkə qoşulub. Bu ölkələrin hamısı yanvar ayının sonuna qədər onlara hansı vaksinlərin göndəriləcəyi barədə məlumat almalıdırlar. Təşkilatın yanvar ayında işə salınan "Ölkələrin hazırlığı portalı"nda hər bir iştirakçı ölkə öz milli planını yerləşdirməlidir.

COVID – 19 sistem xəstəliyidir, bütün orqanlarda izi qala bilər

Qeyd etmək lazımdır ki, vaksinlərin bölgüsü məsələsində BMT – nin Uşaq Fondu (UNICEF) mühüm rol oynayacaq. Fondun rəhbəri Henriyetta For bildirib ki, planetin əhalisinin ən həssas qruplarının vaksinləşdirilməsi yolunda birinci addım COVAX ilə "Pfizer" şirkəti arasında razılaşmadır. O deyib: "Bizim əsas məqsədimiz ondan ibarətdir ki, dünyanın heç bir ölkəsi COVID – 19 -a qarşı vaksinsiz qalmasın. Biz bu məqsədə bir addım yaxınlaşmışıq". Henriyetta Forun sözlərinə görə, hazırda UNICEF keçən ilin noyabr ayında elan edilmiş tender çərçivəsində vaksin istehsalçılarının təqdim etdiyi sifarişləri öyrənir. Lakin UNICEF təkcə vaksinlərin alışı ilə deyil, həm də onların bütün dünyada çatdırılması məsələləri ilə məşğul olur. Bu, heç də asan məsələ deyil, çünki preparatlar aşağı temperaturda saxlanmalıdır. Uşaq Fondunun mütəxəssisləri həm zəruri avadanlığın çatdırılmasını təmin edir, həm də işçi heyətlə təlim keçirlər.

Mütəxəssislərin fikrincə, peyvənd vurdurmaq üçün əks göstəriş yoxdur: "Xəstəliyi keçirib qanında antitel formalaşanlar da peyvənd vurdura bilərlər. Yetər ki, xəstəliyin aktiv dövründə olmasınlar. Hətta xəstəlikdən yeni sağalmış şəxslərə belə peyvənd vurula bilər. Elmi olaraq bunun üçün heç bir qadağa yoxdur. Tədqiqatlar göstərir ki, son 6 ay ərzində xəstəliyi keçirmiş şəxslərdə immunitet davam edir, yəni onlar qoruyucu hesab olunurlar. Peyvəndə tələbatın daha çox olduğu və vaksin sayının az olduğu üçün həmin şəxsləri müəyyən müddət peyvəndləmə prosesinə cəlb etməmək tövsiyə olunur. Əgər sistemdə son altı ay ərzində pozitiv nəticəsi qeydə alınan şəxs varsa, o, peyvənd üçün müraciət edən zaman onun adı sistemdə görünür. Həmin şəxslər bir müddət peyvəndə cəlb olunmurlar. Digər qruplara, yəni əhalinin xəstəliyə yoluxmayan hissəsinə, keçirmiş olsa belə, risk qrupuna daxil olan şəxslərə ilkin olaraq daha çox üstünlük verilir".

Həkimlər vurğulayırlar ki, 18 yaşadək uşaqlara peyvənd vurdurmağa ehtiyac yoxdur, çünki onlar üzərində sınaqlar həyata keçirilmədiyindən nəticə əldə edilməyib. Bundan başqa, hamiləliyin ilk üç ayında da vaksin vurdurmaq tövsiyə olunmur. Hamilələrdə mütləq risk qiymətləndirilməsi aparılmalıdır. Əgər qadınlar risk qrupundadırlarsa, yanaşı xəstəliyi, yaxud xəstəliyi ağır keçirmə ehtimalları varsa, işi ilə əlaqədar olaraq insanlarla çox sıx təmasdadırlarsa, bu halda növbəti üç ayda hamilələrin həkimləri ilə məsləhətləşərək, onlara vaksin vurula bilər. Ciddi immunsupressiv vəziyyətdə olanlara, məsələn, orqan transplantasiyası keçirən xəstəyə də peyvənd vurulmasına dair qəti əks - göstəriş yoxdur. Həmin şəxslər risk qrupuna daxildirlərsə, onlar həkimləri ilə məsləhətləşdikdən və immun statusları dəyərləndirildikdən sonra peyvənd oluna bilərlər.

Sahə həkimi Aygün Kərimova deyir ki, bir neçə ay öncə ölkəmizdə qrip peyvəndinin tətbiqinə başlanılıb: "Hazırda bu proses də davam etdirilir. İnaktiv peyvəndlərdə bu prosesdən iki həftə sonra növbəti vaksin vurula bilər. Qrip, meninqokok, pnevmokok, hepatit A, B əleyhinə vaksin vurulanlar 15 gün sonra koronavirusa qarşı peyvənd oluna bilərlər. Canlı peyvənd – suçiçəyi, vərəm əleyhinə vaksin vurduranların isə bir aydan sonra koronavirusa qarşı peyvənd edilmələri tövsiyə edilir".

Qeyd etmək lazımdır ki, xəstəliyi keçirib, ambulator və ya stasionarda 14 – 21 gün müalicə almaq virusla mübarizənin hələ birinci, başlanğıc hissəsidir. Bu gün dünya virusun sonrakı fəsadı, orqanizmdə təsiri, xəstənin hansı hallardan keçəcəyi barədə elmi - tibbi məlumatlara malik deyil. Lakin koronavirusu keçirmiş xəstələr hələ də əziyyət çəkirlər. Bəzisinə dad, iybilmə qayıtmayıb, bəzisi idman edə bilmir, təngnəfəs olur, bəzisində ağrılar olur, çoxu isə psixoloji baxımdan çökük.

Rusiyanın əməkdar həkimi, professor Sergey Nedoqoda deyib: "Virusdan sağalanlar və reabilitasiya keçənlərlə mütəmadi ünsiyyətdən sonra deyə bilərəm ki, istənilən koronavirus keçirmiş şəxs azı 10 il qocalır. Hələ elə adam var ki, sağalandan sonra onun 20 il yaşlaşdığını görürük. Bu, orqanizmin virusla müharibədən sonrakı vəziyyətidir".

Professor bildirib ki, ilk dəfə Avropada qeydə alınan postkovid sindromu xəstələrdə 3 – 6 ay, bəzən isə naməlum müddətə kimi çəkə bilər. Nə qədər çəkirsə, çəksin, bu sindrom var və biz xəstələrə bu yolda dəstək olmalıyıq.

"İstər yüngül, istər orta ağır formada xəstəlik istənilən halda iri və xırda damarların keçiriciliyini pozur, zədələyir və trombozluğa meyillilik yaradır.

Koronavirusun möhkəm yapışdığı ACE2 reseptorları bədənin bütün toxumalarında var. Maksimal dərəcədə bağırsaqlardadır, ikinci yerdə ürək, damarlar, sonra ağciyərlər gəlir".

Eləcə də qan bütün orqan və toxumalara getdiyindən, deməli, virus hər yerdə ola bilər. Holland alimlərinin son elmi araşdırmasına görə, koronavirus keçirmiş xəstənin orqan və sistemləri azı 10 il qocalır. Bu insanlarda şəkərli diabet, təzyiq, bağırsaq və qaraciyər tərəfindən müxtəlif patologoyalar yarana bilər.

S.Nedoqoda deyib: "Koronavirusdan sonra xəstəliyin fəsadlarının simptomları özünü 2 həftə sonradan başlayaraq, 90 gün ərzində təkrar – təkrar göstərə bilər. Öz pasiyentlərimdə görürəm ki, hətta ən yüngül formada xəstəlik keçirənlərdə belə 2 – 3 ay ciddi və aydın astenik sindrom müşahidə edilir. Xəstə özünü 1 həftə yaxşı hiss edir, sonra qəflətən 10 gün narahatlıqlar başlayır: zəiflik, yorğunluq, fiziki yük və çox iş, gəzmək zamanı təngnəfəslik, depressiya, iştahsızlıq. Ona görə də 21 gün müalicə almaq, xəstəlikdən tam xilas olmaq demək deyil. Virusun bədəndə nə qədər qalıb, nələr yaradacağını biz bir il sonra, indiki xəstələri müşahidə edərək biləcəyik".

Dünya üzrə bütün ekspertlər bildirirlər ki, pandemiyanın yayıldığı vaxtdan etibarən, artıq dünya əhalisinin yarıdan çoxu COVID – 19-a yoluxub. Çünki bəziləri qeydiyyata düşmədən əlamətlərə görə müalicə alıb, bəziləri isə heç özləri də bunun virus olduğunu bilmədən xəstəliyi gizli keçirib. Ona görə bir sıra insanlar antitel analizi verdikdə, onlarda virusu keçirdikləri üzə çıxır.

Oksford universitetinin alimləri bəzi əlamətlərə görə insanın koronavirus keçirdiyini bilməyin mümkün olduğunu açıqlayıblar. Belə ki, sonradan antitel analizi verib müsbət çıxan assimptomatik xəstələr bir sıra simptomları keçirdiklərini, lakin bunun COVID – 19 olduğunu bilmədiklərini etiraf ediblər.

Bu simptomlara əsasən koronavirus keçirib – keçirmədiyini hər kəs təxmin edə bilər. Bu əlamətlər sırasında qarında başlayan ağrı, sancı koronavirusun əsas simptomlarından biri hesab edilir. Virus daha çox mədə ilə həzm yollarına düşdüyündən, xəstələrdə öskürək olmur. Eləcə də ağciyərlərin aşağı payı iltihablaşanda qarın, mədə hissədə ağrı olur. Bir neçə gün davam edən, səbəbsiz və kəsilməyən diareya, ishal gözlənilmədən insanı yaxalayır. Qidalanması normal olsa da, xəstə koronadan şübhələnməsə də, bir neçə gün bununla mübarizə aparır.

Gözlərdə irin, qızarma, konyuktivit əlamətləri görünə bilər. Təcrübələr göstərir ki, gözlər ayrıca, müstəqil olaraq koronavirusa yoluxub, iltihablaşa bilər. Belə vaxtda gözə nəsə düşdüyünü, ya çirk etdiyini düşünmək lazım deyil. Bu sadəcə koronavirus ola bilər və yoluxma bununla da bitər.

Ağız dadının dəyişməsi birbaşa simptom olsa da, ağızda qəribə dad yaranması və yeməklərdən zövq almamaq da koronavirusun oyunu ola bilər. İnsanlar, çox vaxt buna da fikir vermirlər.

Əgər bir neçə gün və ya bir həftə səbəbsiz yorğunluq, halsızlıq, bədəndə süstlük hiss edib, heç bir test vermədən, qızdırma olmadan, dərman qəbul etmədən, sonradan əhvalınız düzəlirsə, bu da gizli keçirilmiş koronavirusun əlaməti ola bilər

Həkim Aygün Kərimovanın fikrincə, bu sadalananlardan bir və ya bir neçə əlamət yaxın bir neçə ayda baş veribsə, koronavirus barədə düşünməyə və ürəyinizdən keçərsə, son nöqtəni qoymaq üçün bir antitel analizi verməyə dəyər. Ola bilər ki, analizin cavabı sizi heyrətləndirsin! Yəni məlum olsun ki, siz koronavirusa yaxalanmısınız və sağalmısınız. Qanda antitellərin yaranması bunu sübut edir.

Amma onu da unutmamalıyıq ki, COVID – 19 sistem xəstəliyidir. Məhz ona görə, ürək, böyrək, beyin və digər orqanlarda iz qoya bilər. Koronavirusun ən böyük zərbələrindən biri də yuxu rejiminin pozulması, yuxunun qeybə çəkilməsidir. Demək olar, 90 faiz koronavirus xəstələri sağalandan sonra da aylarla yuxusuzluqdan əziyyət çəkirlər. Kardioloqlar qeyd edirlər ki, COVID – 19-a yoluxan, ürək – damar xəstəlikləri olan və qanı laxtalanmaya meyilli insanlar risk qrupundadır. Daha çox yüksək təzyiqi olan insanlar bu xəstəliyə yoluxanda ən ağır formada reanimasiyaya düşürlər. Koronavirusdan sonra miokardın iltihabı xəstəliklərinə çox rast gəlinir. Təcrübələr göstərir ki, ürək əzələsi infeksion xəstəliklərdən həmişə zərər görüb. Ona görə koronavirusa yoluxub sağalan hər kəsin tam olaraq müayinədən keçməsi mütləq şəkildə tövsiyə edilir.

Zərifə BƏŞİRQIZI,
"Xalq qəzeti"